Təklif olunan seçimlərdən müəllifi olduğunuz məqaləni seçin və mavi təsdiq düyməsini klikləyin. Beləliklə, məqalə profilinizə əlavə edilmiş olur.

5. Google axtarış sistemində mövcud olmayan məqalələri profilə özünüz əlavə etmək üçün isə açılan menyudan **“add article manually”** bəndini seçin. Məqalə haqqında məlumatları (müəllifin adı, məqalənin adı və nəşr ili) müvafiq bəndlərə əlavə edin. Bu məlumatları daxil etdikdən sonra mavi təsdiq düyməsinə klikləyərək məqaləni profilə əlavə etmiş olacaqsınız.

**ORCID** və ya **Open Researcher and Contributor ID** — elm adamlarının məlumatlarının yerləşdirilməsi üçün hazırlanan beynəlxalq bazadır. Bu sistem qeydiyyatdan keçən hər bir tədqiqatçıya 16 rəqəmli kod verir. Bu beynəlxalq sistem online CV xarakteri daşıyır. Əgər tədqiqatçı burada olan məlumatları tam şəkildə doldurarsa, öz 16 rəqəmli kodunu istənilən yerə göndərməklə şəxsi məlumatları və elmi fəaliyyəti ilə istifadəçiləri tanış edə bilər.

## “ORCID” bazasında qeydiyyat

1. Bazanın qeydiyyat bölməsinin ünvanı: https://orcid.org/register
2. Burada sizə lazım olan əsas məlumatlar - ad, soyad, e-mail ünvanı və paroldur.
3. Daha sonra **“Register”** menyusuna klikləyərək qeydiyyatdan keçə bilərsiniz.
4. Qeydiyyatdan keçdikdən sonra şəxsi məlumatlarınızı, təhsilinizi, vəzifənizi, mükafatlarınızı, yazı, tədqiqat, kitab və konfrans materiallarını, elmi rəy, qəzet materialı və digər ədəbi, elmi və akademik işlərinizi qeyd edə bilərsiniz.

## Texniki dəstək

Qeyd edilən bazalarda qeydiyyatdan keçməkdə çətinliklə rastlaşdığınız təqdirdə, texniki dəstək üçün Hüquq və İnsan Haqları İnstitutuna müraciət edə bilərsiniz (tel: 012 537 20 73).

Hüquqşünas alim və tədqiqatçıların beynəlxalq reytinqə görə siyahısı ilə bu linkdən tanış ola bilərsiniz:
https://lhri.az/az/LegalScholar

www.lhri.az

HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

# ALİMLƏRİN BEYNƏLXALQ REYTİNQİNİN YÜKSƏLDİLMƏSİNƏ DAİR MƏLUMAT VƏRƏQİ

Clarivate
Web of Science™
Scopus
Google Scholar

Bakı - 2024

İnstitutun saytı
www.lhri.az

Virtual kitabxana
https://lhri.az/library

facebook
fb.com/www.lhri.az

## Beynəlxalq reytinqin vacibliyi
Alimlərin beynəlxalq reytinq siyahılarına daxil olması onların konkret sahələr üzrə ölkə daxilində və xaricində tanınmalarına töhfə verir.

## Hansı beynəlxalq reytinq daha populyardır?
Alimlərin beynəlxalq reytinqi bir neçə elmmetrik göstəricilər (indikatorlar) və platformalar (saytlar) vasitəsilə həyata keçirilir.

Alimlərin beynəlxalq reytinqi ən çox **h-indeks** (Hirş indeksi) göstəricisinə görə müəyyən edilir.

Eyni zamanda, Beynəlxalq İstinad İndeksləri hesab edilən "Web of Science" və "Scopus" bazalarında məqalələrinin dərc edilməsi də alimlərin beynəlxalq reytinqinə təsir edir.

Google Scholar bazasında məqalələrin yerləşdirilməsi buradan istifadə edən hər kəsin beynəlxalq reytinqdə irəliləməyi üçün vacibdir.

## Xarici dil bilmədən beynəlxalq reytinq siyahısına düşmək mümkündürmü?
Bəli, mümkündür. Onlayn tərcümə proqramları sizin məqalələrinizin xarici alimlər tərəfindən də oxunmasına kömək edəcək.

## Bu bazalarda qeydiyyatdan keçməyin əlavə üstünlüyü nədir?
Qeyd edilən bazalarda qeydiyyatdan keçməklə oxşar sahələrdə dərc edilən vəsaitlərlə tanış olmaq, əsərlərinizə edilən istinadların sayını görmək, h-indeksinizi izləmək, eləcə də dünya alimləri ilə əlaqə yaratmaq və digər üstünlüklər əldə etmiş olursunuz.

## Google Scholar qeydiyyatı
Bu linkdən istifadə etməklə https://scholar.google.com/intl/en/scholar/citations.html Google Scholar-da qeydiyyatdan keçə bilərsiniz.
Buraya sizin adınız, e-mailiniz, çalışdığınız elmi müəssisənin və ya universitetin adı, elmi işlərin mövzuları daxil edilir.

## SCOPUS-da qeydiyyat
SCOPUS-da qeydiyyatdan keçmək üçün isə bu linkdən https://www.scopus.com/freelookup/form/author.uri yararlana bilərsiz.
SCOPUS-da bir məqaləniz yerləşdirildikdə avtomatik olaraq sizə profil açılır və identifikasiya kodu (Scopus ID) verilir.
Sizin adınız, e-mailiniz, çalışdığınız elmi müəssisənin və ya universitetin adı buraya daxil edilir.

## Məqalələri Google Scholar-a necə yükləmək olar?
1. Bu linkə daxil olun: https://scholar.google.com/
2. Sonra gmail elektron poçt ünvanınız ilə profilinizə daxil olun (profiliniz yoxdursa, yeni profil yaradın);
3. Daha sonra profilinizdə "+" işarəsinə klikləyin;
4. Açılan pəncərədə görünən **"add article groups"** və **"add articles"** bəndləri eyni funksiyanı yerinə yetirir. **"Add article groups"**u seçərək, axtarış hissəsinə məqalənin adını qeyd edib, axtarış düyməsini klikləyin.